# Fəzilət sahibi



"Pir nəfəsin dinləyənin üzünü edər ağ bir söz" irfanından gələnlərdəndir Mirəyyub müəllim. Dünyanın işlərinə pir nəfəsinin gətirdiyi üz ağlığından nəzər yetirir. Həyata baxışının, ömrünün hər anı üzərində pir nəfəsi var. O nəfəsin imanlı daşıyıcılarındandır. Ata-babalarından "bülbül kimi ünü dadlı dili gərək yol əhlinin" düşüncəsinin dərsini alıb. Məkkədə dünyasını dəyişib elə Məkkədə də müqəddəs insanların çevrəsində torpağa tapşırılmış behiştlik atası Mirsultan Ağanın istəyincə milli dəyərlərə etinalı yaşayıb həmişə. Uzun illər Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edib. Müxtəlif vəzifələr daşıyıb. Harada işləməsindən asılı olmayaraq, çalışdığı kollektivin dərin ehtiramını qazanıb.

Xeyirxahlıq Mirəyyub Mirsultanovun mənəvi libasıdır.

Fəzilət sahibidir. Aldığı hər nəfəs xeyirə calayır həmsöhbətini...

Ədəbiyyat əslində Mirəyyub Ağa kimi pir nəfəslilərin hücrəsidir. Pak nəfəsi, düşüncəsi, ədəbiyyata bağlılığı, zövqü ilə əzizimiz, doğmamızdır. Bu səbəbdən doğum gününün, dünyaya gəlişinin sevincini yaşayır, Söz sənətimizin qədirbiləni Mirəyyub Mirsultanovu 65 yaşının tamam olması münasibətilə "Ədəbiyyat qəzeti"nin kollektivi adından təbrik edirik.

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 19 noyabr.- S. 10.